HEYDƏR ƏLİYEV: "Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər bir kəs özü seçir"




# GÜNDOĞAR

NEFTÇALA RAYON QƏZETİ

Qəzet 1931-ci ildən çıxır

Email: gundogarqazeti@gmail.com

30 yanvar 2023-cü il № 1-2 (6804)


## 2023-CÜ İL AZƏRBAYCAN RESPUBLİKASINDA "HEYDƏR ƏLİYEV İLİ" ELAN EDİLMİŞDİR!

## İRADƏNİ GÜCLƏNDİRƏN DƏSTƏK: XALQ ÖZ PREZİDENTİNƏ İNANIR!



***İLHAM ƏLİYEV:*** "Qisas" əməliyyatı Ermənistana bir daha göstərdi ki, bizi heç kim və heç nə dayandıra bilməz. Nə kiminsə bəyanatı, nə kiminsə açıqlaması, nə də hansısa telefon zəngi. Heç nə və heç kim. Bunu Azərbaycan xalqı yaxşı bilir. İkinci Qarabağ müharibəsi bunu göstərmişdir. Əminəm ki, qarşı tərəf də bunu bilir. Sadəcə olaraq, hərdən bir bunu unudur. Ona görə bu faciəvi hadisələr baş verir".

Müstəqil Azərbaycanımızın qarışqarış böyüməsinə, boy atmasına, sevənləri ilə yanaşı sevməyənlərinin də onu qəbul etməsinə zamanla pillə-pillə yaxınlaşan, tanıyan Müzəffər Sərkərdəmiz, öz düşünülmüş siyasəti, dərin zəkası, Ulu Öndər Heydər Əliyev məktəbindən qazandığı təcrübə ilə irəliləyir. İrəlilədikcə də düşmənlərini öz bacarığı ilə geridə qoyur. Humanist, multikultural, tolerant dəyərlərinin bəhrəsi nə qədər səmimiyyət dolu olsa da, sevməyənlər daim saxtakarlıqlar arayırlar, uydurduqları saxtakarlıqda da boğulurlar.

44 gün davam edən, 28 illik ağrılarımızın məlhəmi, səbrimizin ən qiymətli dəyəri olan zəfərimiz, xalqımızın ölkə rəhbəri ətrafında sıx birliyinin, məhz bizi sevməyənlərə ən layiqli cavabı, tanımaq istəməyənlərə isə dərs oldu. Cənab prezidentimiz İlham Əliyev məhz belə keşməkeşli bir ömür daşıyıb və bu gün də şərəflə daşımaqdadır.

Öz xalqının bütün ağrılarını duyaraq işıqlı sabahına inamla baxmaq fədakarlıq tələb edir. Çünki bu işıqlı sabah zülmətə bürünmüş xainlərin saxta münasibətlərinin üzərindən adladıqca aydınlanacaqdır. Onun yolunda məkrlilər itdikcə, bitdikcə parlayacaqdır. Asandırmı belə bir yola çıxmaq? Əlbəttə ki, xeyr! Heç də, asan deyildir. Bəs nə üçün insan belə bir yükü daşımağa qalxır? Elə buradan da, biz öz sualımızın cavabını verə bilirik. Görülən iş, yürüdülən siyasətin nəticəsi az zamanda görünməz. Ona daha uzaqdan baxdıqca nə qədər məşəqqətli bir yolun başından gəldiyimizi aydın görürük.

### BU YOL ULU ÖNDƏR HEYDƏR ƏLİYEV YOLU İDİ!

Onu yarıda qoymaq olmazdı, ləyaqətlə başa çatdıra bilən oğul isə məhz İlham Əliyev idi. Atalardan yadigar örnək ömür xainlərin, xəbislərin ikrah yaradacaq məkrlərində dinə bilməzdi. Bu yolun aydınlığını qoruya, daşıya, sədaqətini göstərə biləcək oğula ehtiyac var idi. Ata vəsiyyətinə etibarla yanaşan, onun yolunu sevərək davam etdirəcək oğula həvalə edilməli idi. Bəli, bu xalqımızın istəyi idi. Ağıllı insanlar bilirdi ki, hər kəs vətənsevər ola bilər. Lakin hər kəs bu dəyanəti, dözümü qoruya bilməz. Bunu yalnız o böyük amalın sədaqətli ardıcılı qətiyyətlə davam etdirəcəkdir. Məhz 2003-cü ilin 15 oktyabr tarixində Azərbaycan Respublikasının Prezidentliyinə seçkilər keçirilən zaman xalqımız bu uzaqgörənliyə güvəndi, israrla seçim etdi. Bu seçim dövlətimizin, xalqımızın tarixində zaman ötdükcə nə qədər doğru qərar olduğunu şəksiz göstərdi. İqtisadiyyatın inkişafı vətənimizin hər guşəsində yüksəlişə, tərəqqiyə təkan verdi. Bu müddət ərzində ordu quruculuğu da yüksəldi, ordunun təchizatı, mütəxəssis kadrlarla təminatı yüksək səviyyədə həyata keçirildi. Bəzən biz bu ötən zaman əhatəsində neqativ hadisələrin də baş verdiyini izləyirik. Lakin heç bir qüvvə bizim əsas yolumuz üzərində maneə ola bilməz. Ağır daş kimi qarşımıza çıxa bilməz! Bu yol vətən yoludur, onun inkişafı, tərəqqisi, işıqlanan arzuların təcəlli etdiyi və edəcəyi yoldur! Biz yolumuzda olan bütün maneələri aradan qaldıraraq irəliləyirik. Və bu yolda Cənab Prezidentimizi əsl mahir siyasətçi, dövlət xadimi kimi görürük. Açıq-aşkar qərəzli suallar, müraciətlər, yerinə yetirilməyən öhdəliklər onun dəmir iradəsini qıra bilmir, bilməyəcəkdir. İnamını, dayağını xalqının səmimi münasibətindən, rəğbət və sevgisindən alan Cənab Prezidentimiz bu gün də, sabah da yüksələn Azərbaycanımız üçün qətiyyətli addımlar atacaq, dövlətimizin tərəqqisi üçün əlindən gələni edəcəkdir. Bütün Avropa, Asiya artıq bunu görməkdədir!

2003-cü ildən bu günə qədər Azərbaycan bütün dünyanın nəzərində yeni bir ölkə kimi görünməkdədir. Sanki ölkəmizin üzərindən illərlə çəkilməyən kölgələr bir parlaq günəş şüalarından çəkinərək zülmətə çəkilmişdir. Bu gün vətənimiz dünya ölkələrinin əksəriyyəti ilə səmimi dostluq münasibətlərini davam etdirir. Sabitlik işgüzarlığın davamlı olması üçün vacib amildir. Cənab Prezident bütün qüvvəsilə sabitliyin qorunmasına çalışır. Lakin "düşmən kimi" mövqe seçənlər, elə "düşmən kimi" də məhv ediləcəkdir. Ölkə başçısının qeyd etdiyi kimi: "Bizi bu yoldan heç kim çəkindirə bilməz".

2003-cü ilin 15 oktyabr tarixində keçirilmiş seçkilərdə xalq öz səsini Ulu Öndər Heydər Əliyev siyasətinin davam etdirilməsinə və ölkədə sabitliyin qorunmasına vermişdir. Xalqımız Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqına 01.10.2003-cü il tarixli müraciətini bu gün də unutmur.

Ulu Öndər xalqa müraciətində demişdir: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn Prezident seçkilərində Prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bəli, qurulmuş işi layiqincə davam etdirmək üçün hər zaman doğru seçim ən vacib qərardır. Bu gün biz minlərlə insanın Azərbaycanın 44 gün ərzində davam edən və qalibiyyətlə başa çatan qələbəsindən danışdığının şahidi oluruq. Azərbaycan haqq yolunda, öz ərazi bütövlüyünün qoruması, suveren hüquqlarının müdafiəsi istiqamətində daim mübarizə aparacaqdır. Bağlanılmış müqavilələr, keçirilən görüşlər, bütün diplomatik əlaqələr yalnız sabitliyə, xalqımızın digər millətlərlə dinc münasibətlərinin tənzimlənməsinə proqnozlaşdırılır. Bu yolda xalqa arxalanan cənab Ali Baş Komandan deyir: "2003-cü ildən - Prezident vəzifəsinə ilk dəfə seçiləndən bu günə qədər xalqın dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək iradəmi möhkəmləndirir. Bu dəstək nəticəsində biz hamımız - bütün Azərbaycan xalqı böyük tarixi uğurlara imza atmışıq".

Bütün xalqımız inanır və güvənir ki, Ulu Öndərin ideyaları ilə silahlanan, minlərlə şəhidimizin canı, qazilərimizin qanı ilə bütövləşən yurdumuz bundan sonra da, cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə yeni uğurlara imza atacaq, gündən-günə çiçəklənəcəkdir. Bu gün işğaldan azad edilən torpaqlarımızda aparılan quruculuq işləri əziz vətənimizin, Azərbaycanımızın ağrılarına bir daha məlhəm olaraq daha xoş gələcəyindən xəbər verir.

## NEFTÇALA RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ ŞAİR SOLTAN ABBASIN 90 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏBRİKİ



***HÖRMƏTLİ SOLTAN MÜƏLLİM!***

*Sizi 90 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirik, Sizə həyatda can sağlığı, yaradıcılıq sevincləri, doğmalarınızla birlikdə xeyirli günlər arzu edirik.*

*Soltan müəllim, Sizin keçdiyiniz ömür yolu bu gün çox insanlara nümunədir. Həyatınız, onu dəyərləndirən fəaliyyətiniz bir neçə istiqamətdə xalqımıza sədaqətlə xidmətdə keçmişdir. İstər yaradıcılıq, müəllimlik fəaliyyətiniz, istərsə də, dövlət qulluğunda şərəfli xidmətiniz böyük bir zaman üçün sizin əsl vətəndaş mövqeyinizin səmərəli bəhrəsini izləməyə, hörmətlə qeyd etməyə imkan verir. İctimai şüurun formalaşmasında, vətəndaş tərbiyəsində, "Kürün töhfələri", "Xəzər nəğmələri" ədəbi birliklərinin fəaliyyətində, mətbuatda, cəmiyyətimizin problemlərinin həllində qələminizlə daim xidmətdə olmağınız torpağımıza, Vətənimizə olan sonsuz məhəbbətinizdən qaynaqlanmışdır. Biz sevinirik ki, bu gün ömür yolunuzun 90 illik dönəmində, fəaliyyətinizin 70 illik tarixini qeyd edərkən bizimlə birlikdəsiniz.*

*Hörmətli Soltan müəllim! Söz müqəddəsdir. Ulularımızın bizə nəsihəti, əmanətidir. Siz bu sənətin zirvəsinə qədər yüksələrək yaratdığınız əsərlərinizlə, çap olunun neçə-neçə kitablarınızla "sözün səyyahına" çevrilərək gələcək nəsillərə dünənimizdən, bu günümüzdən böyük ərməğan hazırlayıbsınız. Ruhu oxşayan lirik şerləriniz, əmək qəhrəmanlarına verdiyiniz dəyər, vətən üçün fədakarlıq göstərən insanlarımıza, şəhidlərimizə göstərdiyiniz böyük diqqət, tərənnüm etdiyiniz yüksək insani keyfiyyətlər, vətəndaşlıq mövqeyi, yurd məhəbbəti bədii nümunələrlə yaddaşlarda əbədiləşib. Bu bir müəllimin, şairin, yaradıcı insanın, söz sərrafının öz el-obasına, torpağına, xalqına, dövlətinə yüksək xidmətinin bəhrəsidir.*

*Bu gün, 90 illik yubileyinizdə Sizə dəyərli qələminizin daim yazar olmasını diləyir, bundan sonra da yazıb-yaratmaq üçün daim sağlam həyat diləyirik.*

*Sizə böyük hörmət və ehtiramla:*

*Mirhəsən Seyidov*

*Neftçala Rayon İcra Hakimiyyətinin başçısı*

## AZƏRBAYCAN RESPUBLİKASI NEFTÇALA RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ SƏRƏNCAMI

**№160 9 dekabr 2022 -ci il.**

"Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi" ilə bağlı

Tədbirlər planı" na uyğun olaraq Neftçala Rayon İcra Hakimiyyəti tərəfindən 2023-cü il ərzində görüləcək işlər və təşkil ediləcək tədbirlərin Təqvim Planının təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin 28 noyabr 2022-ci il tarixli 3623 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"na və "Yerli İcra Hakimiyyətləri Haqqında Əsasnamə" nin 4.1.2 və 6.8 - ci maddələrinə uyğun olaraq rayon ərazisində görüləcək işlər və təşkil ediləcək tədbirlərin həyata keçirilməsinin təmin etmək məqsədilə qərara alıram:

1.Azərbaycan Respublikası Prezidentinin 28 noyabr 2022-ci il tarixli 3623 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili elan edilməsi ilə bağlı Tədbirlər Planı" nəzərə alınsın;

2."Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə və Azərbaycan Respublikası Prezidentinin 28 noyabr 2022-ci il tarixli 3623 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi ilə əlaqədar Neftçala Rayon İcra Hakimiyyəti tərəfindən 2023-cü il ərzində görüləcək işlər və təşkil ediləcək tədbirlərin Təqvim Planı təsdiq edilsin;

(Təqvim Planı Sərəncama əlavə olunsun)

3."Gündoğar" rayon qəzetinin Baş redaktoru Bədirə Niftaliyeva "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nda nəzərdə tutulan tədbirlərlə bağlı materialların dərc edilməsini təmin etsin;

4.Sərəncamın surəti rayonun bütün idarə, təşkilat və müəssisələrinə göndərilsin;

5.Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyətinin başçısının birinci müavini Şaiq Məmmədova tapşırılsın.

***Mirhəsən Seyidov***
***Neftçala Rayon İcra Hakimiyyətinin başçısı***

## AZƏRBAYCAN RESPUBLİKASI NEFTÇALA RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ SƏRƏNCAMI

***№170 22 dekabr 2022-ci il***

2023-cü il üçün Rayon İcra Hakimiyyətinin başçısı aparatında vətəndaşların qəbulunun keçirilməsi barədə

"Vətəndaşların müraciətləri haqqında" "Azərbaycan Respublikası Qanunu" nun 11-ci maddəsinə və Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 06 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamə" nin 3.1.16. və 6.8.-ci bəndlərinin rəhbər tutaraq qərara alıram:

1. Rayon İcra Hakimiyyəti başçısı aparatında vətəndaşların qəbulu ilə bağlı 2023-cü il üçün vətəndaşların qəbulu cədvəli təsdiq edilsin.

(Qəbul cədvəli sərəncama əlavə edilir);

2. Rayon İcra Hakimiyyəti başçısı aparatında başçının müavinləri və aparatın şöbə müdirləri vətəndaşların qəbulunu " Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsi ilə müəyyən edilmiş qaydada və təsdiq edilmiş qəbul cədvəlinə əsasən keçirsin;

3. Rayon İcra Hakimiyyəti başçısı aparatında 2023-cü il üçün təsdiq edilmiş vətəndaşların qəbul cədvəli məlumat üçün Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinə göndərilsin.(E.Bağırov);

4. 2023-cü il üçün Vətəndaşların qəbul cədvəli Rayon İcra Hakimiyyətinin rəsmi internet saytında (www.neftchala-ih.gov.az) yerləşdirilsin, rayonun "Gündoğar" qəzetində dərc olunmaq üçün göndərilsin.(E.Bağırov);

5. Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısı aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Elnur Bağırova tapşırılsın.

**Mirhəsən Seyidov**
**Neftçala Rayon İcra Hakimiyyətinin başçısı**

Neftçala Rayon İcra Hakimiyyəti başçısının "09" dekabr tarixli 160 nömrəli Sərəncamı ilə təsdiq olunmuşdur

**Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə və Azərbaycan Respublikası Prezidentinin 28 noyabr 2022-ci il tarixli 3623 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi ilə əlaqədar Neftçala Rayon İcra Hakimiyyəti tərəfindən 2023-cü il ərzində görüləcək işlər və təşkil ediləcək tədbirlərin**

**TƏQVİM PLANI**

| Sıra sayı | Tədbirin adı | İcra tarixi | İcraçı qrumlar |
|---|---|---|---|
| 1. | 2023-cü ilin "Heydər Əliyev ili" çərçivəsində Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin irsinin təbliği məqsədi ilə "Sən elə bir zirvəsən" adlı müsabiqələrin, sərgilərin, intellektual və idman yarışlarının təşkili | 2023-cü il ərzində | Neftçala Rayon İcra Hakimiyyəti, Biləsuvar Regional Mədəniyyət İdarə[illegible] YAP Neftçala rayon təşkilatı, Rayon Gənclər və İdman İdarəsi, Neftçala Olimpiya İdman Kompleksi, Rayon Təhsil Sektoru, Gənclərin Karyera və İnkişafı mərkəz[illegible] |
| 2. | 2023-cü ilin "Heydər Əliyev ili" çərçivəsində rayonun bütün idarə, təşkilat və müəssisələrində Heydər Əliyevin zəngin həyat və fəaliyyətinə həsr edilmiş tədbirlərin keçirilməsi | 2023-cü il ərzində | Neftçala Rayon İcra Hakimiyyəti, YAP Neftçala rayon təşkilatı, Rayonun bütün idarə, təşkilat müəssisələri |
| 3. | 2023-cü ilin "Heydər Əliyev ili" çərçivəsində Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı rayon ağsaqqalları və ziyalılarının iştirakı ilə dəyirmi masaların təşkili | 2023-cü il ərzində | Neftçala Rayon İcra Hakimiyyəti, YAP Neftçala rayon təşkilatı, Rayon Ağsaqqallar Şurası |
| 4. | Ulu Öndər Heydər Əliyev irsinin gənc nəslə geniş aşılanması məqsədilə gənclərlə görüşlərin keçirilməsi | 2023-cü il ərzində | Neftçala Rayon İcra Hakimiyyəti, Rayon Gənclər və İdman İdarəsi, Gənclərin Karyera və İnkişafı mərkəz[illegible] Neftçala Olimpiya İdman Kompleksi |
| 5. | "Gündoğar" rayon qəzetində mütəmadi olaraq Ümummilli Liderin siyasi irsinin təbliği ilə bağlı materialların dərc edilməsi | 2023-cü il ərzində | Neftçala Rayon İcra Hakimiyyəti, "Gündoğar" rayon qəzeti |
| 6. | Rayonun təhsil müəssisələrində "Heydər Əliyev" dərslərinin keçirilməsi. | 2023-cü il ərzində | Neftçala Rayon İcra Hakimiyyəti, Rayon Təhsil Sektoru |
| 7. | Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə "Gündoğar" rayon qəzetinin xüsusi buraxılışının hazırlanması | May 2023-cü il | Neftçala Rayon İcra Hakimiyyəti, "Gündoğar" rayon qəzeti |
| 8. | Ulu Öndər Heydər Əliyevin 1979-cu ildə Neftçalaya səfəri zamanı onunla görüşmüş şəxslərin Heydər Əliyevlə bağlı xatirələrindən bəhs edən sənədli filmin hazırlanması və təqdimat mərasiminin təşkili | 30 May 2023-cü il | Neftçala Rayon İcra Hakimiyyəti, YAP Neftçala rayon təşkilatı, Biləsuvar Regional Mədəniyyət İdarəsi |
| 9. | Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş bukletlərin çap edilməsi | Aprel-May ayı 2023-cü il | Neftçala Rayon İcra Hakimiyyəti |
| 10. | Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə yubiley banerlərinin hazırlanması və monitorda video çarxların nümayiş etdirilməsi | Aprel-May ayı 2023-cü il | Neftçala Rayon İcra Hakimiyyəti, YAP Neftçala rayon təşkilatı, Biləsuvar Regional Mədəniyyət İdarəsi, Neftçala şəhər İƏDN |
| 11. | Neftçala şəhər Heydər Əliyev Mərkəzinin qarşısındakı meydanda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş flaşmobun keçirilməsi | May 2023-cü il | Neftçala Rayon İcra Hakimiyyəti, YAP Neftçala rayon təşkilatı, Rayon Təhsil Sektoru, Biləsuvar Regional Mədəniyyət İdarəsi, Gənclərin karyera və İnkişafı mərkəzi Rayon Gənclər və İdman İdarəsi |
| 12. | 2023-cü ilin "Heydər Əliyev ili" çərçivəsində Ulu Öndərin siyasi irsinin təbliği məqsədilə rayonun bir qrup şəhid ailəsi üzvlərinin, yeniyetmə və gənclərinin Fəxri xiyabanda Heydər Əliyevin məzarına ziyarətinin təşkil olunması | 2023-cü il ərzində | Neftçala Rayon İcra Hakimiyyəti, YAP Neftçala rayon təşkilatı, Rayon Təhsil Sektoru, Rayon Gənclər və İdman İdarəsi, Gənclərin karyera və İnkişafı mərkəzi |
| 13. | Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə hava şarları vasitəsi ilə "Heydər Əliyev-100 il" adlı yazı lentinin səmada nümayişi | May 2023-cü il | Neftçala Rayon İcra Hakimiyyəti, YAP Neftçala rayon təşkilatı, Rayon Gənclər və İdman İdarəsi, Biləsuvar Regional Mədəniyyət İdarəsi |
| 14. | Neftçala şəhər Heydər Əliyev prospektində Qarabağ əlilləri və şəhid ailələri üçün inşa edilmiş 16 mənzilli yaşayış binasının qarşısındakı yaşıllıq sahəsində abad məhəllənin salınması | 2023-cü il ərzində | Neftçala Rayon İcra Hakimiyyəti |
| 15. | 2023-cü ilin "Heydər Əliyev ili" çərçivəsində ağacəkmə aksiyasının keçirilməsi | 2023-cü il ərzində | Neftçala Rayon İcra Hakimiyyəti, 3 saylı Regional Ekologiya və Təb[illegible] Sərvətlər idarəsi, MKTİB |
| 16. | Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar Heydər Əliyev abidəsinin ziyarət edilməsi, abidə önünə gül dəstələrinin qoyulması | 10 May 2023-cü il | Neftçala Rayon İcra Hakimiyyəti, Biləsuvar Regional Mədəniyyət İdarəsi, Rayonun bütün idarə, təşkilat v[illegible] müəssisələri |
| 17. | Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə təntənəli yubiley tədbirinin keçirilməsi | 10 May 2023-cü il | Neftçala Rayon İcra Hakimiyyəti, YAP Neftçala rayon təşkilatı, Biləsuvar Regional Mədəniyyət İdarəsi |
| 18. | 2023-cü ilin "Heydər Əliyev ili" çərçivəsində 15 İyun Milli Qurtuluş Gününün 30-cu ildönümü münasibətilə "Xalqın xilaskarı" adlı ümumrayon tədbirinin təşkili | 15iyun 2023-cü il | Neftçala Rayon İcra Hakimiyyəti, YAP Neftçala rayon təşkilatı, Biləsuvar Regional Mədəniyyət İdarəsi |
| 19. | Respublikanın elm və mədəniyyət xadimlərinin, tanınmış ziyalıların iştirakı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbirin keçirilməsi | 2023-cü il ərzində | Neftçala Rayon İcra Hakimiyyəti, Biləsuvar Regional Mədəniyyət İdarəsi, Rayon Təhsil Sektoru |
| 20. | 2023-cü ilin "Heydər Əliyev ili" çərçivəsində Azərbaycan Xalqının ümummilli Lideri Heydər Əliyevin vəfatının 20 illiyi münasibətilə Anım Gününün keçirilməsi və Ulu Öndərin əziz xatirəsinə ehsan mərasiminin təşkili | 12 dekabr 2023-cü il | Neftçala Rayon İcra Hakimiyyəti, YAP Neftçala rayon təşkilatı, Biləsuvar Regional Mədəniyyət İdarəsi |

# 20 YANVAR ŞƏRƏF VƏ QÜRUR TARİXİMİZDİR!

Xalqımızın tarixində Ümumxalq Hüzn Günü kimi qeyd etdiyimiz 20 Yanvar faciəsindən 33 il keçir. Bu tarix, bu faciə nə qədər ağır olsa da, biz 20 Yanvar faciəsini şərəf və qürur tariximiz kimi qeyd edir, şəhidlərimizin əziz xatirəsini böyük hörmət, dərin ehtiramla yad edirik.

Şərəf və qürur tariximiz! Xalqımızın mübarizliyi, vətənsevərliyi, öz torpaqlarının azadlığı uğrunda apardığı mübarizə heç zaman azalmadı, əksinə, hər dəfə baş verən faciələr bu dönməzliyi daha da artırdı. Şəhidlərimizin müqəddəs ruhu qarşısında səbir və mətanət göstərən xalqımız Ali Baş Komandanımız Cənab İlham Əliyevin qətiyyətinə inanaraq, onun arxasında sədaqətlə dayandı. 27 sentyabr 2020-ci ildə torpaqlarımızın azadlığı uğrunda başladılan 44 gün davam edən Vətən müharibəsi bir daha sübut etdi ki, xalqımızın Vətən sevgisi heç zaman azalmayacaqdır. Və bu müharibədə biz şəhidlərimizin canı, qazilərimizin qanı, bütün xalqımızın birliyi, ordumuzun mərdliyi, dövlət rəhbərimizin düşünülmüş siyasəti nəticəsində qalib gəldik. Bu gün Vətənin azadlığı yolunda canından keçən şəhidlərimizin ruhu şaddır. Bayrağımız ucalıqda-Qarabağımızda dalğalanır.

Hər dəfə 20 Yanvar faciəsinin ağırlığını qeyd edən, lazımı dəyəri alması üçün təbliğat aparan Ulu öndər Heydər Əliyev 1994-cü ildə ilk dəfə olaraq dövlət səviyyəsində hüquqi qiymət verilməsinə nail olur. 1994-cü il 5 yanvar tarixində "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Fərman imzalayır. Fərmanda qeyd edildiyi kimi Azərbaycan Respublikası Milli Məclisi Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiya keçirir, məsələyə yenidən baxaraq araşdırmalar aparır. Milli Məclisin 1994-cü ilin mart ayının 29-da verdiyi Qərarda faciənin günahkarları konkret olaraq qeyd edilir. Və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirilir.

20 Yanvar faciəsinin davamı olaraq bizim rayonumuzda, Neftçala rayonunda da yanvar ayının 25-dən 26 -na keçən gecə qanlı cinayət hadisəsi davam etmişdir. Sovet ordusunun cinayət törətməkdən çəkinməyən ordusu bir sıra rayonlarda, o cümlədən bizim rayonumuzda da milli azadlıq hərəkatına qarşı terror törətməkdən çəkinməmiş, yanvar ayının 25-də gecə saatlarında Neftçala rayonunda da günahsız insanların qatilinə çevrilmiş, nahaq qanlar tökmüşdür.

20 yanvar faciəsində rayonumuzun ilk Şəhidi Bakı şəhərində olmuşdur. Şəmsəddin Əbilhəsən oğlu Orucov Sabirabad rayonunda doğulsa da, sonradan ailəsi ilə birlikdə Neftçala rayonuna köçmüş, burada orta məktəbi bitirdikdən sonra, ATU-də ali təhsil alaraq mühəndis ixtisasına yiyələnmişdir. 1990-cı il yanvarın 23-də təxminən 14:20 radələrində Bakı şəhərində evində ikən sovet hərbçiləri tərəfindən atılan güllə nəticəsində Şəhid olmuşdur.

20 Yanvar Şəhidlərinə matəm saxlayan rayon əhalisinə qarşı, həmçinin milli azadlıq hərəkatının fəallarının toplaşdığı binaya silahla hücum edərək silahsız insanları təhqir edərək, döyərək, güllə altında həbs etmişdirlər. Hər tərəfə açdıqları güllələrdən biri öz maşınında işdən evə qayıdan Ağahüseynov Nurəddin Aslan oğlunu ağır yaralanmış, həmin gün xəstəxanada vəfat etmişdir.

O ağır, dəhşətli gecədə həbs edilərək dəhşətli əzablarla Şəhid olan Bankə qəsəbə sakini gənc Əbülfəz Böyükağa oğlu Cəfərovun mərdliyi bu gün də hər kəsin xatirəsindədir. Əbülfəz 1964-cü il, 14 dekabr tarixində Neftçala rayonunun Bankə qəsəbəsində anadan olmuşdur. 1982-ci ildə orta məktəbi başa vurmuşdur. Əbülfəz idmanı çox sevsə də, həm də şair təbiətli idi. Hələ orta məktəbi bitirdiyi il onun ilk "Azərbaycan" şeiri "Oktyabr bayrağı" rayon qəzetində dərc olunmuşdur. Baş verən 20 yanvar faciəsi bütün xalqımız kimi ona da ağır təsir etmişdi. Şəhid Şəmsəddinin dəfnindən sonra Əbülfəz şəhidlər üçün 16 bənd bayatı yazır...

Bəli... o müdhiş gecə Əbülfəz Cəfərov də rayon mərkəzinə gəlir. Qəfil hücum edən qatillərlə, "öldür", "dağıt" əmri alan hərbçilərlə qarşılaşır. Əbülfəz onların hər bir adama necə divan tutduqlarının şahidi olur. Bu mənzərəni görən Əbülfəz özünü saxlaya bilmir, əliyalın hərbçilərin üzərinə atılır. Onu əvvəlcə ayağından, sonra isə döş qəfəsindən güllə ilə yaralayırlar. Xalqımızın mərd övladı ölümündən sonra "Fəxri Mübariz Döyüşçü" adına layiq görülmüşdür.







→ 3

# 20 YANVAR ŞƏRƏF VƏ QÜRUR TARİXİMİZDİR

❷ 20 Yanvar faciəsi xalqımızın yaddaşından heç zaman silinməyəcəkdir. Öz azadlıq istəyini tələb edən əliyalın xalqa qarşı sovet imperiyasının təpədən dırnağa qədər silahlanmış ordusunun törətdiyi qətliam unudulmayacaq. Şəhidlərimizin xatirəsi daim rəğbətlə yad ediləcəkdir. Bu bəşəriyyət tarixində qanlı terror aktı, heç bir izaha sığmayan düşmənçilik siyasəti, bir xalqın qanla yazılmış faciəsi idi. Bu gün şərəf və qürur tariximiz deyə yad etdiyimiz 20 Yanvar faciəsi xalqımızın mübarizlik salnaməsidir.

Neftçala rayonunda 20 Yanvar hadisələrinin 33-cü il dönümü ilə əlaqədar " 20 Yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Ulu Öndər Heydər Əliyevin rolu" mövzusunda dəyirmi masa keçirilib.

Dəyirmi masada Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq-mühafizə orqanlarının, Yeni Azərbaycan Partiyasının Neftçala rayon nümayəndəliyi, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhid ailələri, Vətən müharibəsi iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak edib.

İlk öncə Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların və 20 Yanvar şəhidlərinin ruhu bir dəqiqəlik sükutla yad olunub.







Çıxış edən Neftçala rayon Ağsaqqallar şurasının sədri Əbülfəz Ağayev, 25-26 Yanvar Neftçala hadisələrinin şahidləri İmamverdi Zeynalov, Mustafa Əliyev, şəhid atası Baloğlan Ağamalıyev və digər çıxışçılar 1990-cı ildə törədilən 20 Yanvar hadisələri haqqında yaşadıqları hadisələri danışıblar və həmin ildə ölkəmizdə hakimiyyət uğrunda gedən mübarizələri xatırlayıblar.

Sovet Ordusu qoşunlarının qanunsuz yeridilməsi nəticəsində Bakıda və Azərbaycan rayonlarında 131 nəfər şəhidlik zirvəsinə ucalıb, 744 nəfər yaralanıb, 841 nəfər qanunsuz həbs olunub. Xalqın təkidilə Azərbaycana gələn Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti və qətiyyətli addımları nəticəsində ölkədə qardaş qırğınının qarşısının alınması haqqında görüş iştirakçılarını məlumatlandırıblar.

Dəyirmi masada çıxış edən Neftçala RİH-in başçısı Mirhəsən Seyidov bildirdi ki, 20 yanvar faciəsindən dərhal sonra 1990-cı il yanvarın 21-də Ümummilli Lider Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək doğma xalqı ilə həmrəy olduğunu nümayiş etdirib, SSRİ rəhbərliyinin törətdiyi bu qanlı əməliyyata kəskin etirazını bildirib və həmin əməliyyata rəhbərlik edənləri ifşa edib: "Azərbaycanda baş verən hadisələri həm hüquqa, demokratiyaya zidd, humanizmə və hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin də yaranmazdı . Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır!". 1990-cı il noyabrın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Ümummilli Lider Heydər Əliyev Yanvar faciəsini Azərbaycan xalqının suveren hüquqlarına qəsd kimi qiymətləndirib: "Mən belə hesab edirəm ki, 19-20 yanvarda baş verən bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gələn bir haldır və eyni zamanda, Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir. Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovet İttifaqında, ölkənin daxilində heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmayıb. Bunu da edən Sovet ordusu olub və bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri Bakatin vaxtından qabaq Bakıya gəlib və bu əməliyyatlara rəhbərlik ediblər. Müharibə vaxtı hərbi nazir az-az cəbhəyə gedirdi, ancaq görün bu hərbi əməliyyata bunlar nə qədər böyük fikir veriblər, bunun miqyası nə qədər böyük olub ki, marşal Yazov gəlib Bakıda oturub və bu əməliyyata rəhbərlik edib. Demək, bu, Azərbaycan xalqına qarşı göstərilən hərbi təcavüzdür, təhqirdir, Azərbaycan xalqının qarşısında cinayətdir".

Dəyirmi masanın təşkilində həmçinin 20 yanvar hadisələrini özündə əks etdirin Neftçala rayon Dövlət Rəsm Qalereyasının rəsm əsərlərinə, Neftçala rayon Mərkəzləşmiş Kitabxana Sisteminin təşkil etdiyi kitab və çap materialları sərgisinə də baxış keçirilib, videoçarx nümayiş etdirilib.

Allah bütün şəhidlərimizi rəhmət eləsin, Azərbaycanımızı qorusun. Amin.

# Səyyar qəbullar davam edir









2023-cü ildə Neftçala Rayon İcra Hakimiyyətinin başçısının vətəndaşlarla səyyar qəbulu davam edir. İlin əvvəlindən ilk olaraq Neftçala rayon Cəngan kəndində, daha sonra Neftçala şəhərinin 5-ci və 6-cı məhəllə sakinləri ilə növbəti səyyar qəbul həyata keçirilib. Səyyar qəbullarda ərazi üzrə vətəndaşların təklifləri, onları narahat edən məsələlər müzakirə edilməklə yanaşı, həmçinin seçilmiş mövzular istiqamətində maarifləndirmə tədbirləri də həyata keçirilir. Keçirilən səyyar görüşlər böyük əhəmiyyət daşıyır. Belə ki, burada Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidovla birlikdə İcra Hakimiyyətinin məsul işçiləri, hüquq-mühafizə orqanlarının məsul işçiləri, idarə və təşkilat rəhbərləri, seçilmiş ərazi üzrə ağsaqqal insanlar, şəhid ailələri və b. iştirak edir. Bu da qarşıya qoyulan məsələlərin həllinin bəzən yerindəcə, bəzən də müəyyən müddətə araşdırılaraq həll olunmasına şərait yaradır.

Səyyar qəbulda əsasən Qaraqaşlı kəndinin mavi yanacaqla təmin olunması, həkim tibb məntəqəsinə pediatrların təmin olunması, kollektor və drenajların lildən təmizlənməsi və digər məsələlər ilə əlaqədar təkliflər səsləndiriblər. Vətəndaşların səsləndirdikləri ümumi problemlər ayrı-ayrılıqda dinlənilib və məsələlər müzakirə olunub, digər problemlərin həllinin araşdırılması üçün tapşırıqlar verilib.

Hər bir insan cəmiyyətimizdə önəm daşıyan vətəndaşdır. Vətəndaş olmaq dövlətimizi yaşatmaq üçün öz əməyini, qüvvəsini əsirgəməməkdir. Cəmiyyətin qorunmasında, inkişafında, öz əməyini sərf etmək, şərəflə xidmət etmək deməkdir. Bu mənada xalqla rəhbərliyin bir yerdə, bir istiqamətdə həmrəyliyi vacibdir. Bu həmrəylik çətinliklərin həllini asanlaşdıraraq vətənimizin, dövlətimizin inkişafına, xalqımızın rifahının yaxşılaşdırılmasına xidmət edəcəkdir.

# SƏFİRLİYƏ HÜCUM TERRORDUR!




27 yanvar 2023-cü ildə Bakı vaxtı ilə səhər saat 8:30 radələrində Azərbaycanın Tehrandakı Səfirliyinə silahlı basqın edilib. Törədilən terror bütün xalqımızın hiddətinə səbəb olaraq etiraz yaratmışdır. Kalaşnikov avtomatı ilə silahlanmış terrorçu diplomatik nümayəndəliyin təhlükəsizlik xidmətinin rəhbəri Baş leytenant Orxan Əsgərovu qətlə yetirmişdir. İllərlə erməni təcavüzkarlara qarşı mübarizəni sülh yolu ilə nizamlamaq istədiyimiz halda bizə dəstək olmayan İran, əslində ermənilərlə eyni niyyəti paylaşırmış. 44 günlük Vətən müharibəsində qazandığımız zəfər göstərdi ki, zahirdə "dost", əslində isə dövlətimizə qarşı xain mövqedə olan bu yaxın "qonşu" dövlətimizin yüksəlişini xəyanətlə izləməkdədir. Bir çox səbəblərlə büruzə çıxan bu xain əməllərdən biri də, 27 yanvarda baş verdi. Terrorçunun səfirliyimizə açıq-aşkar silahlı müdaxiləsi göz önündədir. Terror əməliyyatı nəticəsində səfirliyimizin mühafizə xidmətinin Baş leytenantı Orxan Əsgərov şəhid olmuş, iki nəfər yaralanmışdır. Səfirliyin əməkdaşı Vasif Tağıyevin cəsur, çevik, ölümü gözə alaraq terrorçunun üzərinə atılması, silahsız olduğu hala onu zərərsizləşdirilməsi bütün dünyanı bir daha heyrətə salmışdır. Onun səyi nəticəsində qatil zərərsizləşdirilərək saxlanılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu hadisəni terror adlandıraraq şiddətlə qınadığını və rəsmi Tehrandan təcili təzliklə tədbir görəcəyini gözlədiyini bildirib. Cənab İlham Əliyev şəhidimizin ailəsinə başsağlığı verib, yaralılara şəfa diləyib.

Bu terror hadisəsi dünyanın çox ölkəsi tərəfindən etirazla, qətiyyətlə pislənilib. Rusiya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Mariya Zaxarova Azərbaycanın İrandakı səfirliyinə edilən hücumun görüntülərini paylaşaraq "Azərbaycan səfirliyinin mühafizə əməkdaşı şir kimi vuruşub", -deyə qeyd edib. Macarıstan sakinləri isə Vasif Tağıyev haqqında "Azərbaycanın İrandakı səfirliyinin əməkdaşı Vasif Tağıyev Atilla kimi cəsur və qorxmazdır" fikrini ifadə ediblər.

Azərbaycan xalqı tarixən Qəhrəmanlar diyarı olub. Vətənimizə qarşı xain mövqedə olan hər kəs layiq olduğu yerdə qalacaq, öz cəzasını alacaqdır.

Şəhidimiz Orxan Rizvan oğlu Əsgərovun ailəsinə dərin hüznlə başsağlığı veririk. Şəhidimiz 30 yanvar 2023-cü ildə II Fəxri Xiyabanda dəfn ediləcəkdir. Məkanı nurla dolsun. Allah ailəsinə, doğmalarına səbir versin.

*"GÜNDOĞAR"*

# UNUDULMAZ DÜZ SÖZÜM, ÖTÜB KEÇSƏ DƏ YÜZÜM!

# SOLTAN ABBAS - 90



*Bir ömür yaşadın, dupduru ömür,*
*Yarı sevinc ömür, yarı qəm ömür.*
*Söyləyin, söyləyin nəyə gərəkdir,*
*Sevincsiz, sevgisiz, qupquru ömür.*
(Soltan ABBAS)

Dəyərli şairimiz Soltan İsrafil oğlu Abbasov 1933-cü ildə 7 yanvar tarixində Neftçala rayonunun Ballıcallı kəndində anadan olub. İlk təhsilini doğma kəndində alan şair 6-cı sinfə qədər Boyat kəndində, daha sonra isə Xıllı qəsəbəsində təhsil almışdır. Orta təhsilini 1952-ci ildə başa vuran Soltan Abbas 1957-ci ildə Bakı Pedaqoji məktəbini bitirmiş, doğma rayonumuza təyinat alaraq əmək fəaliyyətinə başlamışdır. Bir müddətdən sonra yenidən təhsilini davam etdirmək niyyəti ilə Həsən bəy Zərdabi adına Gəncə Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsinə daxil olaraq ali təhsilini müvəffəqiyyətlə tamamlamışdır.



## GƏLDİM BU DÜNYAYA YAŞAMAQ ÜÇÜN, EL-OBA YÜKÜNÜ DAŞIMAQ ÜÇÜN!

Əmək fəaliyyətinə1951-1953-cü illərdə kənd kitabxanasının müdiri kimi başlayan Soltan Abbas 33 il fasiləsiz olaraq Xıllı, Neftçala və Salyan rayonlarında müəllim işləmişdir. Həmin müddətdə həmçinin, Salyan rayonunda çıxan "Qələbə" qəzetində şöbə müdiri işləmiş, qəzetin nəzdində "Kürün töhfəsi" adlı ədəbi birlik yaratmış, beş il onun rəhbəri olmuşdur. 1953-1955-ci illərdə Boyat kənd İnzibati Ərazi üzrə nümayəndə və Xıllı rayonu mədəniyyət şöbəsinin inspektoru işləyir. Həmçinin 1991-2006-cı illərdə yenidən Boyat kənd İnzibati Ərazi dairəsi üzrə Nümayəndəsi vəzifəsində işləyib.

1973-cü ildən isə Neftçala rayonunun müstəqil olması, burada "Oktyabr bayrağı"(indiki "Gündoğar") adlı rayon qəzetinin fəaliyyətə başlaması ilə şair Soltan Abbas eyni zamanda qəzetin fəal əməkdaşlarından olaraq müntəzəm məqalələr, şeirlərlə qəzetdə fəaliyyət göstərir. Eyni zamanda 1975-ci ildə qəzetin nəzdində "Xəzər nəğmələri" ədəbi birliyini yaradır ki, bu günə qədər həmin birliyin rəhbəridir. Bu birlik şair, publisist Soltan Abbasın rəhbərliyi ilə neçə-neçə ədəbi imzaların yaranmasına, inkişafına təkan olmuşdur.


AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN
MUĞAN BÖLMƏSİ
FƏXRİ FƏRMAN
Soltan Abbas
(Soltan İsrafil oğlu Abbasov)
Ədəbi yaradıcılıq uğurlarına və milli-mənəvi dəyərlərimizin yüksək bədii tərənnümünə görə
TƏLTİF EDİLİR
Azərbaycan Yazıçılar Birliyi Muğan bölməsinin sədri Nəbi İbrahimli

Şair Soltan Abbas bir müəllim ömrü yaşasa da, bu ömürdə şair sözü müəllim öyüdü ilə birgə səslənmişdir. Nə qədər çətin, məsuliyyətli olsa da, hər iki xidməti ilə elin, obanın məsləhətçisinə çevrilmiş, çətin vaxtda hər bir soydaşına hayan olmuş, həyatda düzgün yol seçməsinə çalışmışdır. Dövlət qulluğunda xidməti illərində şair kəndin inkişafı üçün çalışmış, kəndin qazlaşdırılması işində, mədəniyyət obyektlərinin inkişafı üçün bacardıqca xidmət etmiş, təbliğatı artırmışdır.Torpaqlarımızın azadlığı yolunda fəda olan oğulların həyatını qəlb ağrısı ilə qələmə alan şair "Əfqanıstan şəhidləri", I Qarabağ döyüşlərində şəhadətə ucalan oğullar haqqında "Ömrün şəhidlik zirvəsi" kitablarını qələmə alaraq rəşadətli ömürlərin əbədiləşməsinə öz töhfəsini vermişdir.







## BİZ GEDƏRİK, BU DÜNYAMIZ QALASI, ƏMƏLİMİZ GÜLLƏBATMAZ QALASI!

Soltan müəllim yaradıcılığa elə gənclik illərindən başlayıb. İlk kitabı olan "Damcı" 1979-cu ildə çap edilmişdir. Onun ardınca 1980-ci ildə "Mənə çox öyrəşmə", 1984-cü ildə "Tut ağacı" kitabı çap edilmişdir.

1985-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan şair Soltan Abbas dəfələrlə "Fəxri Fərman" larla təltif edilmiş, "Məmməd Araz" ali ədəbi mükafatı laureatı, "Azərbaycan SSR Qabaqcıl Maarif Xadimi" adına layiq görülmüşdür. 1989-cu ildə şairin "Yollar ömür yolum", 1997-ci ildə isə "Həqiqətin ağzı daş saxlamaz" kitabları çap olunur.

Şairin yaradıcılığında XXI əsrin ilk on ili daha məhsuldar olur. Belə ki, 2000-ci ildən başlayaraq "Rübailər", 2001-ci ildə "Qəzəllər", 2003-cü ildə "Ömrün Şəhidlik zirvəsi", 2005-ci ildə "Torpağın sahibi", "Nakam ömrün yaşıl anları", 2006-cı ildə "Səyyah etdi söz məni", 2008-ci ildə "Ömür töhfəsi", "Torpağın oğlu", 2009-cu ildə "Ömrü yaşadan sözlər", 2010-cu ildə "Dünya duyumları" kitabları çap olunmuşdur.

## YADAM ƏVVƏL GÜNDƏN XIRDALIQLARA, ÖMÜRDƏN HƏYATDA GƏRƏK İZ QALA!

Bu günə qədər şair Soltan Abbasın 19 kitabı çap edilmişdir. Əsərləri ilə Azərbaycan ədəbiyyatının inkişafına töhfə verən dəyərli şairimizin yaradıcılığında vətənə, xalqa sevgi, insanlığın dəyərləndirilməsi, əməkçi insanların tərənnümü, şəhid ömürlərin fədakarlığı, bir sözlə təbiət, cəmiyyət hadisələri ən gözəl şəkildə tərənnüm edilmiş, oxucuların sevgisini, rəğbətini qazanmışdır.




2023-cü ildə şair, publisist Soltan Abbasın 90 yaşı tamam olur. Dəyərli şairimizin yubiley ilində müxəlif təbliğat müəssisələri tərəfindən məlumat günləri təşkil edilmiş, kitabxanalarda həyat və fəaliyyətini əks etdirən sərgilər hazırlanmışdır. 24 Yanvar 2023-cü il tarixində isə şairin 90 illik yubileyi çox böyük təntənə ilə, Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidovun rəhbərliyi, dəstəyi ilə "Təbrik" şadlıq sarayında yüksək səviyyədə qeyd edilmişdir. Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq- mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, Yeni Azərbaycan Partiyasının Neftçala rayon təşkilatının əməkdaşları, şəhid ailələri, şairlər, yazıçılar və ictimaiyyət nümayəndələri iştirak edirdi. Çıxış edənlər, Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov şair Soltan Abbası təbrik edərək ona xoş arzularını bildirərək "Fəxri Fərman" və hədiyyə təqdim etdi. Şairin qələm yoldaşları Azərbaycan Yazıçılar Birliyinin Muğan bölməsinin sədri Nəbi İbrahimoğlu Azərbaycan Yazıçılar Birliyi adından şairə "Fəxri Fərman" təqdim etdi. Salyan rayon "Qələbə" qəzetinin baş redaktoru Rüstəm Məlikov, yaxın qohumlarından Etibar Əbilov, Xəzər Nəğmələri ədəbi birliyinin üzvləri şair Zabil Pərviz, şairə Zərxanım Ülvi, Əliqulu Əliyev, Şəhid ailələrindən Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılovun anası Filara İsmayılova, I Qarabağ Şəhidi Rövşən Ağamalıyevin atası Baloğlan Ağamalıyev, Vətən müharibəsi şəhidi leytenant Məhəmməd Zeynalovun atası Bəxtiyar Zeynalov, YAP-nın veteran əməkdaşı Oktay Kərimov, "Gündoğar" qəzetinin baş redaktoru Bədirə Niftaliyeva və b. şair Soltan Abbasa ən xoş arzularını bildirdilər. Tədbirdə şairin həyat və fəaliyyətini əks etdirən video çarx izləyicilər tərəfindən rəğbətlə qarşılandı. Yubiley tədbiri Neftçala rayon MKS-nin 5 saylı kitabxanasının müdiri Nəzakət Məmmədovanın hazırladığı ssenari, rayon Xolqaraqaşlı kənd məktəbinin direktoru Ruhəngiz Nəcəfovanın aparıcılığı, eyni zamanda Biləsuvar Regional Mədəniyyət İdarəsinin musiqiçilərinin, Süleyman Ruqiyevin, Şahbaz Dadaşovun, İlqar Həsənovun, Rövşən Mehdiyevin ifasında rəngarəng mahnılar, qiraətçi Əfsər iştirakı ilə başa çatdı.



***Kür çayının sahilində***
***Kür ömürlü ömür yaşar.***
***Bu ömürə zərrin sular***
***Gecə-gündüz nəğmə***
***qoşar.***

***Dalğasında ulduzlaşan,***
***Ucalaşan şöhrəti var.***
***Şöhrətinin səmasında***
***Bayraqlaşan qeyrətin var.***

*90 illik yubileyinin qeyd edilməsi şairin ömür yolunu bir daha nura boyadı. Bütün tədbir iştirakçıları dəyərli şairimizə can sağlığı diləyərək xatirə şəkilləri ilə günü, Soltan müəllimin 90 illik yubileyini yaddaşlara köçürdülər.*

***Yatanlara yastıq deyil***
***Yolu onun...***
***Şəfəqlənən bir***
***günəşdir-***
***Əli onun, qolu onun.***

***Bu torpağın arzusudur,***
***Düzlərinin sonsuz barı,***
***Gözlərində vətən eşqi***
***Əyilməyən el vüqarı.***

***Zəhmət, əmək***
***çeşməlidir,***
***Cəlalının nəhri onun.***
***Bu dünyaya bəslik edər,***
***Saf ülfəti, mehri onun.***



# SOLTAN MÜƏLLİM 100 YAŞA!

## Şair Soltan Abbasın 90 illik yubileyi münasibətilə

***Böyük şair və dəyərli el ağsaqqalı, Soltan Abbas!***

*Sizi 90 illik yubileyiniz münasibəti ilə ürəkdən təbrik edir, Uca Tanrının izni ilə sağlam şəkildə 100 yaşı adlayıb keçmənizi diləyirəm.*

*Siz çağdaş Azərbaycan ədəbiyyatında özünəməxsus sözü, yeri və nəfəsi olan şairlərimizdən birisiz. Özümü xoşbəxt sayıram ki, Sizi şəxsən tanımaq, dəfələrlə həmsöhbət olmaq, həyata və dünyaya müdrik baxışlarınızın ifadəsi olan dərin məzmunlu söhbətlərinizi dinləmək səadətini yaşamışam.*

*Muğan bölgəsində sözün daha çox dəyər qazanmasında, poeziyanın, ümumilikdə ədəbi dəyərlərin xalq arasında sevilməsində Sizin böyük əməyiniz danılmazdır. Siz 1971-ci ildə Salyanda yaranan "Kürün töhfəsi" Ədəbi Birliyinin ilk sədri olmusuz. Bir neçə il bu ədəbi quruma rəhbərlik etdikdən sonra Neftçalada yaranan "Xəzər nəğmələri" Ədəbi Birliyinə sədr seçilmisiz. Nə mutlu mənə ki, ilk sədri Siz olduğunuz "Kürün töhfəsi" Ədəbi Birliyinə 8 il - 2000-ci ildən 2008-ci ilə qədər rəhbərlik etdim. O zamanlar mənə ilk xeyir-dua verən ağsaqqallardan biri Siz oldunuz. 2008-ci ildə Azərbaycan Yazıçılar Birliyi Muğan Bölməsinin Salyanda keçirilən təsis konfransında Xalq yazıçısı Anarın təklifi ilə Bölmənin sədri seçildim. Bölməyə rəhbərlik etdiyim bu 7 ildə də hər zaman Sizin mənəvi dəstəyinizi hiss etdim. Son 40-50 ildə Muğan bölgəsində doğulub boya-başa çatan qələm adamlarının çoxu Sizi özünə ustad, müəllim hesab edir, Sizdən öyrənir, bəhrələnirlər. Siz bu gün də ömrünüzün müdrik çağında yazıb-yaradırsız, Neftçalada "Xəzər nəğmələri" Ədəbi Birliyinə rəhbərlik edirsiz, onlarla yaradıcı gəncə yön verirsiz.*

*Siz zəngin həyat yolu keçmisiz. Ləyaqətli ömür yaşamısız. Millətimiz və dövlətimiz adına alqışa layiq əməllərə imza atmısız. Böyük şairimiz Xəlil Rza Ulutürkün dediyi kimi saniyənizi qızıl kimi xərcləmisiz. Bu nədənlə 90 yaşınızda Muğan elinin ağsaqqalı kimi qutsal bir titulu haqq etmisiz. Belə ömür və belə ağsaqqallıq hər Tanrı bəndəsinə nəsib olmur.*

*Dəyərli şairimiz, əziz ağsaqqalımız, Soltan Abbas!*

*Sizi bir daha 90 illik yubileyiniz münasibəti ilə ürəkdən təbrik edirəm. Canınız hər zaman sağlam, başınız uca olsun.*

*Tanrının izni ilə 100 yaşınızda görüşənədək.*

*Sayğılarımla:* ***Namiq Hacıheydərli***
***Şair, araşdırmaçı, Prezident Mükafatçısı,***
***UNESCO Beynəlxalq Layihələrin***
***Tətbiqi Mərkəzinin üzvü***



***"Söz mülkündə Xaqani, Nizami dühası var.***
***İmadəddin Nəsimi, Füzuli dünyası var.***
***Səbirli şerimizin əlçatmaz səması var.***
***Zindanları dağıdan Ulutürk qovğası var.***
***Soltan ABBAS***

***Əzizimiz, söz mülkünün soltanı, sözün qüdrəti ilə könülləri fəth edən ustad şairimiz Soltan Abbas! Sizi, 90 illik yubileyiniz münasibəti ilə təbrik edir, Sizə yeni-yeni yaradıcılıq uğurları, ədəbi aləmdə əbədi olmağı, can sağlığı arzulayıram. Bundan sonra da örnək həyat yolunuzda qürurla irəliləyəsiniz. Allahın hökmü ilə zəngin ömrünüzü 100 yaşınızla da rəngləndirəsiniz!"***

***Nəzakət QULUQIZI***



## "Şairliyim həsrətindən yadigar, heç bilmirəm məndən sənə nə qaldı?"



***<u>Daş dilləndi</u>***

*Dərdimizi dedik*
*başa,*
*Daş dilləndi,*
*baş lal oldu.*
*Cavab üçün*
*yol-yoxuşda*
*Gedənimiz*
*avdal oldu,*
*Daş dilləndi,*
*baş lal oldu.*

*Qolumuzu*
*bağlatdırıb,*
*Silah verdi*
*qonşumuza.*
*Dilimizi bağlat-*
*dırıb-*
*Dağ uçurdu*
*başımıza.*
*Şaxta vurdu,*
*bahar soldu,*
*Daş dilləndi,*
*baş lal oldu.*

*Bu dünyanın işi*
*nədi,*
*Necə salaq*
*yadımıza?*
*Adımıza "vəhşi",*
*-dedi,*
*Qızınanlar odu-*
*muza.*
*El təkləndi,*
*darda qaldı,*
*Daş dilləndi,*
*baş lal oldu*

***Soltan ABBAS***

## BİZ DƏ ƏZİZ ŞAİRİMİZ SOLTAN ABBASI TƏBRİK EDİRİK!



"Mən, Neftçala rayon Heydər Əliyev Mərkəzində hörmətli şairimiz Soltan Abbasın 90 illik yubileyinə həsr edilmiş tədbirdə iştirak etdim.Tədbirdə çıxış edənlər əziz şairimiz haqqında geniş məlumat verdilər. Mən də Soltan müəllimin "Gənclik" şerini söylədim. Şeirdən bir parçanı qeyd etmək istəyirəm.

**"Kimin qəlbində soyuqluq varsa,**
**Qəlbimin odundan ona göndərim.**
**İstərəm qarşıma səhralar çıxa,**
**Çiçəyə döndərim, gülə döndərim"**
***(Soltan Abbas)***

"Mən bu tədbirdə Şair Soltan Abbas haqqında çox maraqlı kitablar, xatirələr öyrəndim. Onun bir-birindən seçilən mənalı, tərbiyəvi şeirləri mənim xoşuma gəldi.Təşkil edilmiş sərgidə həyatı haqqında çoxlu kitabları var idi. Mən də, əziz şairimizi 90 illik yubileyi münasibətilə təbrik edirəm. Can sağlığı arzu edirəm. Mən fəxr edirəm ki, bizim Neftçala rayonunda Soltan Abbas kimi görkəmli bir şair vardır".

***Səmayə ZEYNALOVA( 5-ci sinif şagirdi)***

"Salam. Mən, Neftçala rayon "İnteqrasiya təlimli internat tipli gimnaziya"nın 5 "C" sinif şagirdiyəm. Biz bu gün Azərbaycanımızın şairi Soltan Abbasın 90 illik yubileyinə həsr edilmiş tədbirdə müəllimlərimizlə birlikdə iştirak etdik. Orada bizim çoxlu çıxışlarımız oldu. Şair Soltan Abbasın şeirlərindən ifa etdik. Tədbirdə çox maraqlı məqamlar haqqında qeyd olundu. Biz bu barədə daha ətraflı məlumat aldıq. Daha çox vətənpərvərlik mövzusu təbliğ olunurdu. Azərbaycanımızın belə şairləri heç zaman unudulmaz!"

***Leyla CƏBRAYILOVA(5-ci sinif şagirdi)***

"Biz 16 yanvar 2023-cü ildə dahi şairimiz Soltan Abbasın 90 illik yubileyini keçirtdik. Şair Soltan Abbasın 90 illik yubileyinə çox gözəl tədbir hazırlanmışdı. Bu tədbirə bizi də dəvət etmişdilər. Biz bu dəvəti böyük məmnuniyyətlə qəbul etdik. Tədbirə bir çox qonaqlar da gəlmişdi. Hər çıxış edən qonaqlar şairin necə qayğıkeş, əməksevər, mehriban bir şair olduğunu bizə öyrətdilər. Mən tədbirdə şair Soltan Abbasın maraqlı kitabları ilə tanış oldum. Mən də tədbirdə şair Soltan Abbasın "Gənclik" şerindən bir bənd söylədim:

***"Çətinə düşəndə, dara düşəndə,***
***Əlimdən tutanım ürək olubdu.***
***Məndən inciməsin müəllimlərim,***
***Əsil müəllimim əmək olubdu".***
***(Soltan Abbas)***

Neftçala rayon Heydər Əliyev Mərkəzində tədbir bitdikdən sonra biz həm də, Mərkəzi kitabxanada təşkil edilmiş sərgi ilə tanış olduq. Mən heç vaxt bu dahi şairimiz Soltan Abbası unutmayacağam! Mən fəxr edirəm ki, bizim belə gözəl şeirlər yazan, əməksevər şairimiz var. Biz də, şairimizi təbrik edirik. Allahdan can sağlığı arzu edirik.

***Ayla CƏFƏRLİ ( 5-ci sinif şagirdi)***

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ 2023 / 2024-cü tədris ili üçün DİN-in Polis Akademiyasında "hüquqşünaslıq" ixtisası üzrə əyani təhsilə kursantların qəbuluna dair

# E L A N

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasında "hüquqşünaslıq" ixtisası üzrə əyani təhsilə 300 kursantn qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə - Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda və həqiqi hərbi xidmətə yararlı olan, buraxılış siniflərində (11-ci sinifdə) oxuyan və tam orta təhsilli, 16 yaşdan 18 yaşadək olan ( 2023-cü ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər 2023-cü ilin Yanvar, Aprel və İyul aylarında həqiqi hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli olmayan və ya məhdud fəaliyyət qabiliyyəti hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, yaxın qohumları qəsdən törədilmiş ağır cinayətərə görə məhkum edilmiş (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumları istisna olunmaqla) eləcə də, "Azərbaycan Respublikası Daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə müəyyən olunmuş digər şəxslərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmır.

Sənədlərin qəbulu 2023-cü ilin yanvar ayının 23-dən mart ayının 4-dək bazar günləri istisna olmaqla hər gün saat 10:00-dan 17:00-dək namizədin təhsil aldığı təhsil müəssisəsinin yerləşdiyinz inzibati ərazi üzrə polis idarə və şöbələrində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

***-şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə( əsli və surəti);***
***- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd(attestat);***
***- yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;***
***- ilkin hərbi qeydiyyata alınması haqqında vəsiqə( əsli və surəti)***
***- oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;***
***- 9x12 sm. ölçüdə iki ədəd, 4x6 sm. Ölçüdə 4 ədəd fotoşəkil( ( papaqsız,rəngli, donuq kağızda).***

***Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: ( 012) 454-12-78, (012) 590-98-16, (012) 590-99-47.***

Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə qəbulun ilkin şərtlərinə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.

Abituriyentlər fiziki hazırlıq imtahanı (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma-çəkisi 80 kq. -dək olanlar üçün 10 dəfə, 80kq.-dan yuxarı olanlar üçün-8 dəfə; qaçış 100 metr məsafəyə 15 saniyə və 1000 metr məsafəyə 4 dəq; qollar üzərində bədənin döşəmədən qaldırılması - 20 dəfə; arxası üstdə uzanmış halda bədənin döşəmədən qaldırılması - 20 dəfə) verməli, nazirliyin seçmə komissiyasından uğurla keçdikdən sonra Tibb İdarəsinin Xüsusi həkim komissiyasında müayinə olunub (Polis Akademiyasında təhsilə yararlı) olması barədə rəyi sənədləri toplanan polis orqanına dərhal təqdim etməlidirlər. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu andan abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və həkim komissiyalarından keçə bilməyən və ya həkim komissiyasına göndəriş aldığı gündən 15 gün ərzində müvafiq rəyi təqdim etməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır.

Müsabiqəyə buraxılan abituriyentlərin siyahısı III ixtisas qrupu fənləri üzrə qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilatı tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər həmin Mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-in Polis Akademiyasına qəbul olunmuş kursantlar 14 avqust - 14 sentyabr 2023-cü il tarixində Akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 15 sentyabrda başlamaqla tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 4 ildir.

Təhsil müddətində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, Akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara "hüquqşünaslıq" ixtisası, "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

Seçmə komissiyalarının vaxtı barədə əlavə məlumat veriləcəkdir. Polis Akademiyası haqqında ətraflı məlumatlar akademiyanın www.pa.edu.az internet saytlarında yerləşdirilməlidir.

***Əlavə məlumat almaq istəyənlər Neftçala rayon Polis Şöbəsinə müraciət edə bilər. Əlavə məlumat almaq üçün əlaqə telefonları: (021 26) 3-31-49, (021 26) 3-10-67, (02126) 3-42-52.***

# YANVAR AYINDA DOĞULAN VƏTƏN FƏDAİLƏRİ



Şəhid oğullar sırasında Eminov Coşqun Emin oğlu da vardır. Coşqun Eminov 02 yanvar 1969-cu ildə Neftçala rayon Qırmızıkənd kəndində anadan olmuşdur. 24 dekabr 1992-ci ilə Qarabağ uğrunda döyüşlərdə şəhid olmuşdur.



Şəhid Əliyev Şəmsəddin Səftər oğlu 05 yanvar 1962-ci ildə Neftçala rayonu Qaraqaşlı kəndində anadan olmuşdur. Şəhid Şəmsəddin Əliyev 31 dekabr 1994-cü ildə Ağdam ətrafında şəhid olmuşdur.




Şəhid Əliyusif Yəhya oğlu Əliyev 14 yanvar 1964-cü idə Neftçala rayonu Qaçaqkənd kəndində anadan olmuşdur. 1993-cü ilin oktyabr ayında hərbi xidmətə gedir. İki ay, yeddi gündən sonra şəhid vətən uğrunda, torpaqlarımızın azadlığı yolunda şəhid olur.



Şəhid Dadaşov Asif Əmiraslan oğlu 01 yanvar 1971-ci ildə Neftçala rayon Yeniqışlaq kəndində anadan olmuşdur. 1993-cü ildə yanvar ayının 6-da torpaqlarımızın azadlığı uğrunda I Qarabağ döyüşlərdə şəhid olmuşdur.



Şəhid İlqar İsrafil oğlu Məhərrəmov 12 yanvar 1973-cü ildə Neftçala rayon Xıllı qəsəbəsində anadan olmuşdur.

I Qarabağ döyüşlərində 15 aprel 1994-cü ildə şəhid olmuşdur.



Şəhid Seyid Cavad Dövlət oğlu Kazımov 22 yanvar 1966-cı ildə Neftçala rayon Xəzər kəndində doğulmuşdur.I Qarabağ döyüşlərində 01 yanvar 1994-cü ildə şəhid olmuşdur.



Şəhid Nəriman Rəşid oğlu Bəşirov 24 Yanvar 1972-ci ildə Neftçala rayonu Qaçaqkənd kəndində anadan olmuşdur. 1992-ci ilin sentyabr ayında Ağdərə ətrafında gedən Qarabağ döyüşlərində şəhid olmuşdur.



Şəhid Cəfərov Mehman Abdulrəhman oğlu 28 yanvar 1968-ci ildə Neftçala rayonunun Boyat kəndində doğulmuşdur. I Qarabağ döyüşlərində 20 yanvar 1993-cü ildə itkin düşmüşdür



Şəhid Mirismayıl Məhəmməd oğlu Mikayılov 10 yanvar 1971-ci ildə Bankə qəsəbəsində anadan olmuşdur.I Qarabağ döyüşlərində, şərəflə vuruşaraq 1992-ci ilin iyun ayının 12-də Əsgəran istiqamətində gedən ağır döyüşlərdə, itkin düşmüşdür.



Şəhid Mahir Əliheydər oğlu Sadıqov 13 yanvar 1961-ci ildə Mayak kəndində doğulmuşdur. Könüllü olaraq I Qarabağ döyüşlərinə qoşulan Mahir Sadıqov 1994-cü ildə doğum günündə şəhadətə ucalmışdır.



Şəhid Nəcəfov Hakim Tədbir oğlu, 4 yanvar 1973-cü ildə Neftçala rayon Xıllı qəsəbəsində anadan olmuşdur. I Qarabağ döyüşlərində iştirak edən Hakim nəcəfov 31 avqust 1994 - cü ildə Füzuli rayonunda, Horadiz qəsəbəsində şəhid olmuşdur.



Şəhid Həziyev Faiq Qulamhüseyn oğlu 17 yanvar 1971-ci ildə Neftçala rayon Xol Qarabucaq kəndində anadan olmuşdur. I Qarabağ döyüşlərində şərəflə vuruşaraq 6 yanvar 1994-cü ildə şəhid olmuşdur



Şəid Mirmöhsüm Mirdaməd oğlu Əhmədov 21 yanvar 2002-ci ildə Neftçala rayonunda doğulmuşdur. Hərbi xidmətdə olarkən Vətən müharibəsi başlamış, Mirmöhsüm Əhmədov torpaqlarımızın azadlığı uğrunda vuruşaraq 28 oktyabr 2020-ci ildə qəhrəmancasına şəhid olmuşdur.



Mehman Xudaşükür oğlu Əliyev 1 yanvar 2002-ci ildə Xol Qarabucaq kəndində doğulmuşdur. Vətən müharibəsinə hərbi xidmətdə olarkən qoşulmuş, Xocavənd rayonu uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.



Şəhid Nəcəfov İlqar Həsənalı oğlu 20 yanvar 1975-ci ildə Neftçala rayonunun Xoltəzəkənd kəndində anadan olmuşdur. İlqar Nəcəfov İlqar könüllu olaraq döyüşlərə qatılmış, bir neçə kəndi azad etdikdən sonra ağır döyüşlər zamanı şəhid olmuşdur.



Şəhid Süleymanov Famil Əli oğlu 20 yanvar 1971-ci ildə Neftçala rayonunun Qaraqaşlı kəndində doğulmuşdur. I Qarabağ döyüşləri zamanı 28 yanvar 1994-cü ildə qəhrəmancasına şəhid olmuşdur



Şəhid Xəqani Əliyar oğlu Nəsirov 11 yanvar 1986-cı ildə Neftçala rayonu Boyat kəndində anadan olmuşdur. 10 fevral 2005-ci ildə hərbi xidmətdə olarkən atəşkəsin pozulması nəticəsində şəhid olmuşdur.



Şəhid Babayev Müşfiq Cavanşir oğlu 20 yanvar 1970-ci ildə Neftçala rayonu Pirəbbə kəndində anadan olmuşdur. I Qarabağ döyüşlərində şərəflə vuruşaraq 09 fevral 1993-cü ildə şəhid olmuşdur.



Şəhid Bəxtiyar Ağabala oğlu Əsgərov 25 yanvar 1973-cü ildə Neftçala rayonu Mirqurbanlı kəndində anadan olmuş, 19 sentyabr 1992-ci ildə I Qarabağ döyüşlərində itkin düşmüşdür.



Şəhid Şahmar Əvəzağa oğlu Piriyev 23 yanvar 1975-ci ildə Neftçala rayonu Xolqarabucaq kəndində doğulmuşdur. I Qarabağ döyüşlərində cəsarətlə vuruşaraq 19 iyun 1994-cü ildə şəhid olmuşdur.



Şəhid Elşən Lazım oğlu Nuriyev 15 yanvar 1975-ci ildə Neftçala şəhərində anadan olmuşdur. 06 mart 1994-cü ildə I Qarabağ döyüşlərində şəhid olmuşdur.



Elçin Ələkbər oğlu Əliyev 15 yanvar 1997-ci ildə Neftçala rayonunda doğulmuşdur. Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda mübarizəyə qoşularaq Qubadlı rayonunda şəhid olmuşdur.



Vətən müharibəsi şəhidi Nicat Aşur oğlu Xankişiyev 27 yanvar 1999-cu ildə Neftçala rayonu Həsənabad qəsəbəsində anadan olmuş, Vətən müharibəsində 7 oktyabrda şəhid olmuşdur. 2 noyabr 2020-ci il tarixində rayon Şəhidlər Xiyabanında dəfn olunmuşdur.



Vətən müharibəsi şəhidi Bayramov Əmrah Hüseyn oğlu 18 yanvar 2001-ci ildə Neftçala rayonu Bankə qəsəbəsində doğulmuşdur. 2020-ci ildə Vətən müharibəsində iştirak edərək, 9 oktyabrda şəhid olmuş, 30 oktyabr tarixində rayon Şəhidlər Xiyabanında dəfn edilmişdir.

# QƏHRƏMANLARIN İZİ İLƏ...










Vətən uğrunda fədakarlıqla vuruşan, torpaqlarımızın müdafiəsi üçün can qurban edən oğullar daim böyük ehtiramla yad edilir. Eyni zamanda onların ailələrinə qarşı respublikamızda, eləcə də rayonumuzda diqqət və qayğı azalmır. 2023-cü ilin yanvar ayında Neftçala RİH-in başçısı Mirhəsən Seyidovun tövsiyə və göstərişlərinə uyğun olaraq "Qəhrəmanların izi ilə" adlı layihəyə start verilib. Layihənin məqsədi şəhid ailələrinin sosial qayğıları ilə yaxından tanış olmaq, onların arzularını, təkliflərini dinləmək və qanuna müvafiq qaydada həlli yollarına köməklik göstərməkdir. Layihənin icrası məqsədilə Neftçala Rayon İcra Hakimiyyətində işçi qrup yaradılıb və bu işçi qrupunun tərkibində Neftçala RİH-in məsul şəxsləri, yerli İƏDN-nin məsul şəxsləri, rayon ağsaqqalları,"Gündoğar"qəzetinin redaktoru və ictimaiyyət nümayəndələri iştirak edir. "Qəhrəmanların izi ilə"layihəsi ilk olaraq Bankə qəsəbəsində anadan olan şəhidlərin ailələrinin ziyarət olunması ilə başlayıb. Şəhid ailələri ziyarət edilib, qayğıları öyrənilib, təklifləri dinlənilib.

Şəhid ailələrinə diqqət və qayğı hər bir vətəndaşımızın qəlbində, ürəyində olmalı, birlikdə daim inkişafda olan cəmiyyətimizin, yurdumuzun azadlığı uğrunda candan keçən şəhidlərimizin ailələrinə dəstək olmalıyıq.



Şəhid İbrahim Möhsüm oğlu Mənəfov 31 mart 1995-ci ildə Neftçala rayonunda doğulmuş, Milli Aviasiya Akademiyasını bitirdikdən sonra hərbi xidmətə yola düşmüşdür. Daima qəlbində Vətən sevgisi olan İbrahim Vətənin müdafiəsini şərəf bilmişdir. Hələ tələbə olarkən paylaşdığı fikirlərində yurda olan sevgisini belə ifadə edirdi: "Müharibə qaçılmazdır və hər bir Azərbaycan vətəndaşının da borcudur... Mən də bunu özümə Qarabağ müharibəsi barədə eşidəndən borc bilmişəm və borcumu mütləq qaytarmalıyam... Allah bizi şəhidliyə layiq bilsin inşallah!"

Bu duyğularla yaşayan və ürəklə vəzifəsini yerinə yetirən gənc VƏTƏNSEVƏR xidməti borcunu şərəflə yerinə yetirərkən 19 yanvar gecəsində qəhrəmancasına Şəhid olmuş, 20 yanvar tarixində doğulduğu Neftçala rayonunda sevdiyi Vətən torpağına qovuşmuş, parlaq Şəhidlik zirvəsində özünə layiq yer almışdır. Allah rəhmət eləsin. Ruhu şad olsun İbrahimin və bütün Vətən şəhidlərinin. Onların əbədiyaşar ömrü unudulmayacaqdır.

# ŞƏHİD ÖMÜRLƏR ƏBƏDİYAŞARDIR: VƏTƏN ÜÇÜN DOĞULMUŞLAR!







17 yanvar 2023-cü il tarixində Neftçala şəhər Samid İmanov adına 1 saylı orta məktəbdə Vətən müharibəsi şəhidimiz Əmrah Hüseyn oğlu Bayramovun doğum günü münasibətilə xatirə gecəsi keçirilmişdir. Tədbirdə şəhidimizin ailə üzvləri, məktəbin müəllim və şagird kollektivi, RİH-in nümayəndələrindən İ.Həsənov, E. Məmmədzadə,rayon H.Əliyev Mərkəzinin direktoru K. Məmmədova, rayon "Gündoğar" qəzetinin baş redaktoru B. Niftaliyeva, rayon Mədəniyyət Mərkəzinin direktoru G. Mirzəyeva, Neftçala rayon MKS-in 1 saylı, 5 saylı kitabxanalarının əməkdaşları və b. iştirak edirdilər. Vətən Müharibəsi şəhidi Əmrah Bayramov 2001-ci ildə Neftçala rayon Bankə qəsəbəsində anadan olmuşdur. Vətən Müharibəsində iştirak edərək oktyabr ayının 1-də qəhrəmancasına şəhid olmuş, 30 oktyabr tarixində Neftçala rayon Şəhidlər Xiyabanında dəfn edilmişdir. Xatirə gecəsində Əmrahın şəhid ömrü bir daha xatirələrdə canlanaraq örnək ömür kimi qeyd edildi .Bildirildi ki, Vətən üçün candan keçən oğullar heç zaman unudulmayacaqdır. Tədbiri 7-ci sinif şagirdi Səda Mirzəli aparırdı. Tədbirdə 80-100 nəfərə məktəblinin ifasında şəhidlərimizin xatirəsinə həsr edilmiş müxtəlif şeirlər , mahnılar və xatirələr ifa edildi. Məktəbin direktoru Ülviyyə müəllimə çıxışında qeyd etdi ki, Vətən müharibəsində candan keçən şəhidlərimizin hər birinin adına məktəbdə sinif otaqları ayrılmışdır , onların xatirəsi daim qəlbimizdə yaşayacaq və sevə-sevə təbliğ olunacaq. Şəhid Əmrah Bayramovun adına verilən sinfin, həmçinin dil ədəbiyyat müəlliməsi Dilarə Səfərova Əmrahın məktəb illərində xatirələrini qeyd edərək oxuduğu və adını daşıyan sinifdə hazırlanmış guşə haqqında ətraflı məlumat verdi. Tədbirin sonunda şəhidimizin nənəsi Tamara xanım çıxış edərək Əmrah haqqında kövrək duyğularından söhbət açdı və şəhidlərimizə verilən dəyər üçün məktəbin müəllim və şagird kollektivinə və bütün qonaqlara minnətdarlığını bildirdi. Tədbirdə həmçinin şəhidimizin anası Elnurə xanım və bacısı Günel xanım Əmrah haqqında , onun həyatını əks etdirən şirin xatirələrindən söhbət açdılar. Tədbir Vətən şəhidlərinin xatirəsinə böyük ehtiramla sona çatdı. Ruhu şad olsun Əmrah Bayramovun və bütün şəhidlərimizin.

**Nicat AĞAYEV**

# SÖZƏ XİDMƏT EDƏNLƏR...

***ATAMALI TALIBOĞLU***

***Sonuncu qış***

***( Həmyerlim I Qarabağ döyüşlərində qəhrəmancasına şəhid olmuş Kərəm Tağıyevin əziz xatirəsinə)***

### Sonuncu qış

Köçdün könüllərə, ürəklərə sən,
Ömrün bir yanıqlı bayatı oldu.
Ölsən də, qorxmadın heç vaxt ölümdən,
Həyatın qəhrəman həyatı oldu.
Düşmənə oldu çox qəzəbin, kinin,
Canını verdin sən xalqın yolunda.
İgid Koroğlunun, qaçaq Nəbinin
Duyuldu qüvvəti, gücü qolunda.

Ömrün sona çatdı çovğunlu bir qış
Ana ümidini məzara qoydun.
Hələ bu dünyadan qəlbin doymamış
Görəsən sən belə tez niyə doydun?

Göstərdin cəbhədə çox qəhrəmanlıq,
Elin alqış dedi hər şücaətə.
Olmadı şimşək tək ömrün bir anlıq,
Qovuşdun əbədi əbədiyyətə.

Kimsə tanımırdı kənd olduğunu,-
Xəzərkənd tanındı min illər boyu.
Bir gündə aləmə tanıtdın onu,
Ömrünü uzatdın nəsillər boyu.

Yayıldı nər kimi adın hər yana,
Biz də əzizlədik, öpdük bu adı.
Bu qoca dünyaya, ulu cahana
Adın gələr oldu, gedər olmadı.

Hər zaman ümidlə baxdın sabaha,
Eşqiylə yaşadın ötən hər günü.
Səni unutmadı bu el, bu oba,
Döndün bir tarixə tarixlər üçün.

Bir gün ölümünü dedilər mənə
İnana bilmədim bu bəd xəbərə
Təkcə üz qoyduğun bu torpaq sənə
Açdı qucağına sonuncu kərə.

---

***Nazim TEYMUROĞLU***

**Sən mənim taleyimsən**

Ürək sözlə doludur
Yolumuz haqq yoludur,
Kələkbazla tamahkar
Öz nəfsinin quludur.

Dünən sırada duran
Bu gün tabutda gedir.
Çayların quruması
Dənizin ödün əzir.

Bəxtimin sirr qapısın
Sim-sim də aça bilməz
Vaxtsız gələn əcəldən
İnsanlar qaça bilməz

Sən mənim taleyimsən
Həsrətə dözməliyəm.
Qismətim ölüm olsa,
Ölümü sevməliyəm

**Biganəliyin faciəsi**

Qarışqa saman çöpünü
Nizə kimi qaldırıb başının üstə.
Kim dağıtsa yuvasını-
Nizəni sancar onun köksünə.
Biçilmiş zəmilərdə.
Səksəkəli dovşan yuxusu....
Doğranır kotan ağzında.
Kiçik dövlətlər-
İlan ağzında can verən qurbağatək
Həzm olunur imperiyaların boğazında.
Qurumuş ağaclar.
Doğranır xırda-xırda,
Ocaqda yanmaq üçün.
Övladını uşaq evinə göndərənlər,
Atalıq hissini erkən öldürənlər də
İçindən doğranır, dərddən quruyur.
Bilir ki, övladı gəlməyəcək
Yasin surəsi oxunanda
Qəbrinin yanında dayanmaq üçün.

### Qoltuq ağacı

Qoltuq ağacı heç vaxt əyilməz,
Xəstəyə dayaq olar.
Qoltuq ağacı olanlar
Şərəfini itirər,
Lənət yükünü
Belinin donqarıtək
Kürəyində bitirər.
Üzə ağ olar
Qoltuq ağacı...
Qazilərimizə həm dərdsən, yaraqsan
Vətəni vətən edənlərə dayaqsan!

### Təbrizə əl uzadaq

Əllərini yumusan
Su yerinə qanımla.
Azadlığı qazannam
Dişimlə, dırnağımla.
Başındakı çalmanı
Ermənıyə verirsən.
Təhqir etdin "QURANI"
Barı yerə girirsən?!

Birə düşüb kürkünə.
Qalxıb millət ayağa.
Güvənib öz kökünə
Dönüb vulkana, dağa.

Gizlin düşmən İrandı.
Qatillərlə birləşib
Yanlarında dayandı.
Bizə hər şey əyandı!

Güvənərək özümüzə,
Qüvvət verək gücümüzə
Cənublu soydaşlara
Əl verib, edək kömək.
Təbrizli qardaşları
Rejimdən azad edək.

---

**İmamverdi Ölməz (Zeynalov)**
***AYB-nin üzvü, şair, yazıçı, publisist, Prezident təqaüdçüsü***

***<u>Gözləmə məni!...</u>***

***( I Qarabağ şəhidi, qardaşım oğlu, igid, əfsanəvi Qəhrəman Zeynalov Azad Ağaverdi oğlunun parlaq və nurlu xatirəsinə)***

Payız yarpaqları nağıl danışır,
Sevgilər dərd çəkir, küsüb barışır,
Səma ulduzları göydə sayrışır,
Gəzirsən yaz vaxtı çölü, çəməni.
Ey qara hörüklüm, gözləmə məni.

Kim deyir, döyüşlər bitib, tükənməz,
Bəs niyə sevgilər əhdinə yetməz?
Qarabağ sevdası başından getməz,
Dönək o illərə, dönək yenəmi?
Ey sevən ürəyim, gözləmə məni.

Yenə yer üzünə yağışlar yağar,
Yoluma bir gözəl, baxar, boylanar,
O bəylik paltarım alışar, yanar,
Sevdim doğma yurdu, ana Vətəni,
Əbədi əsgərəm gözləmə məni.

Ulu Qarabağın ana laylası,
Vağzalı dağlarda bir qəm sədası,
Adımla fəxr etsin, əsgər anası
Erkən qarşıladın dumanı, çəməni
Döyüşən əsgərəm gözləmə məni.

Deyirlər yaşımız yüz il, min ildir
Hər tərəf bulaqlar, yaşıl çəməndir,
Bu doğma yurdumdur, doğma elimdir,
Sonsuz səmalarda taparam səni,
Sən Allah bir daha, gözləmə məni.

**ZAUR ƏRMUĞAN**

***"GÜNDOĞAR" qəzeti şair Zaur Ərmuğanı müsabiqədə qalib olduğu üçün təbrik edir, yaradıcılıq uğurları diləyir.***




### Vətən

Ana yurdum, obamdır,
Vətən elimdir mənim.
Beşiyimdir, yuvamdır,
Vətən evimdir mənim.

Çölüm, dağım, daşımdır,
Ruhumdur, yaddaşımdır,
Məzarım, baş daşımdır,
Göyüm, yerimdir Vətən.

### Gəlir

Bu otdan, çiçəkdən,
Bu yeldən, küləkdən,
Ağacdan, yarpaqdan,
Havadan, torpaqdan
Yurd qoxusu gəlir.

O atəş səsindən,
Səngər nəfəsindən,
O sipər canlardan,
Tökülən qanlardan
Qurd qoxusu gəlir.

### Müqəddəs qisas

Göylərə çəkilən şəhid ruhuna
Tanrı sığal çəkir öz əlləriylə.
Dünyanın göz açan al sabahına
Şəhid ətri dolur yurd yelləriylə.

Yer üzü, göy üzü sarınmış cəngə,
Torpağın qarası bir lalə rəngə.
Nərələr təbildir bir gur ahəngə,

### Savaş meydanı da can çölləriylə...

Şəhid qanlarıyla yoğrulub torpaq,
Təzədən, təzədən doğulub torpaq.
Bir bax, məşəl olub, od olub torpaq
Əbədi alovu qor dilləriylə...

Bil, adı mərdlikdir hər başdaşının,
Qəddi dağ qəddidir qəlb sirdaşının.
Gözlərdən süzülən o göz yaşının
Çeşməsi ürəkdir ah selləriylə.

Şəhidlər torpağı vətən eləmiş,
Bu çölü, bu dağı vətən eləmiş.
Şəhidlər bayrağı vətən eləmiş,
Gəlir səcdəsinə yurd elləriylə.

Oğullar zəfərlər çaldığı yerdə,
Müqəddəs bir qisas aldığı yerdə,
Şəhid məzarının olduğu yerdə
Vətən çiçək açıb tər gülləriylə.

***"GÜNDOĞAR"***

# AZƏRBAYCAN İNCİSİ ŞUŞA!



*"Şuşa! Bu ad nə qədər əziz, doğma, munis və sevimli bir ad; nə qədər dilnəvaz və mehriban bir ana - vətəndir. Şuşa o qədər gözəl bir yerdir ki, onun adı qarşısında daima diz çökərək "xaki-payini" hörmətlə öpmək mənim ən müqəddəs vəzifəm olub. Bu şəhərin uğrunda hər bir varlıqdan: candan, maldan, həyatdan və sairədən keçmək, al qanlara bulanmaq, məhv olmaq mənim üçün ən müqəddəs bir səadət və şərəfli bir haldır".*

***Həsən İxfa Əlizadə***

Xoşbəxtlikdən bu qədim və gözəl şəhəri görmək mənə də qismət oldu. Şuşa Azərbaycanın incisidir, qələbəmizin zəfəridir, tariximizin qızıl səhifəsindən boylanan həm nisgilli, həm də şanlı qələbəli ulu diyarıdır. Bu qədim şəhəri görmək böyük bir xoşbəxtlikdir. Bu xoşbəxtliyi bizə yaşadan Vətən oğullarına: şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə can sağlığı, hərbçilərimizə isə sağlam ömür diləyirəm. Məhz onların Ali Baş Komandanın Dəmir Yumruğu ətrafında birləşib əzəli torpaqlarımızı azad etməsi ilə biz qalib vətəndaş kimi Qarabağa gedə bilirik.

Bir vətəndaş, bir tarix müəllimi olaraq Şuşaya gedə bilmək həyatımın ən xoşbəxt anı idi. Yolboyu tarixi torpaqlarımızın dağıdılması görüntüsünə üzülürək çatdım sıldırım qayalı Şuşaya. O qayalar ki, igid oğullarımız keçilməz mümkün olmayan qayalıqdan dırnaqları ilə çıxmışdılar. Həm də böyük və şərəfli bir yüklə: çiyinlərində şəhid, yaralı yoldaşlarını daşımaqla. Baxmaq belə heyrətləndirir insanı, o ki qala azğın düşməndən azad etmək ola. Min dəfə, milyon dəfə şəhidlərimizin ruhu qarşısında baş əyərək getdim Şuşaya. Bağrına dəfələrlə yara basılmış Şuşa, dağlanmış, dağıdılmış, yara almış və nəhayətdə azad olunmuş Şuşa. Bərpa olunmağa başlasa da, dağılmış halı ilə fəryad qoparır bu şəhər sanki. Bilmirəm niyə amma Xurşidbanu Natəvanın dağıdılmış evinin divarları elə bil küskün baxır adama. Əslində bilirəm niyə... çox gözləyib bu şəhər azadlığını... 28 il sonra! Çoxmu gec gəldik, Şuşa?! İgidlərini çoxmu gözlədin?!

Günəş çıxmışdı o gün... Günəşlə salamladı bizi dekabr ayında dağlar incisi Şuşa. Biz də kövrələrək getdik ora. Azadlıq nə qədər möhtəşəm olsa da, oralarda şəhid qanı qurumayıb... Yəqin ki, biz azərbaycanlılar üçün heç vaxt da qurumayacaq.

Əziz Şuşa... səni görmək necə də böyük xoşbəxtlik idi.

***Şəhrəbanu AĞALAROVA***

***Neftçala rayonu, Cəngan kənd orta məktəbinin tarix müəllimi.***

# "GÜNDOĞAR" TƏBRİK EDİR!
## ŞƏRƏFLİ ƏMƏK BAŞ UCALIĞIDIR!



İnsan hansı sahədə ürəklə çalışarsa, əməyi ilə ucalar, işlədiyi kollektivin də, onu tanıyan insanların da sevimlisinə çevrilər. Belə dəyərli, işini sevən, daim məsuliyyətlə yanaşan əməkdaşlardan biri də Neftçala rayon Mərkəzi xəstəxanasında çalışan Qəfərova Tamella Əlisəfər qızıdır.

Tamella xanım 1976-cı ildən Neftçala rayon Mərkəzi xəstəxanasında mühasib işləyir. 23 dekabr 1957- ci ildə Neftçala torpağında dünyaya göz açan Tamella xanımın dekabr ayında 65 yaşı tamam olub. Tamella xanımın necə işçi olması elə qazandığı xoş münasibətdən görünür. Yubileyinin qəzetimizdə verilməsini də ondan xəbərsiz həmkarları arzu etdi. Biz də belə dəyərli insanlarımız haqqında yazmaqdan qürur duyuruq deyərək, Tamella xanımı qəzetimizin 2023-cü ildə, ilk sayında hörmət və rəğbətlə təbrik edirik.

Əziz Tamella xanım! Sizi həmkarlarınız, kollektiviniz, "Gündoğar" qəzetinin əməkdaşları və oxucuları adından 65 illik yubileyiniz münasibətilə təbrik edir, can sağlığı, ailəniz, doğmalarınızla birlikdə xoş günlər diləyirik. İnsan ömrü yaşanan günlərlə tarixləşir, yaddaşlarda yaşayır. Ömrü mənalandıran, unudulmaz edən günləri isə hər bir insan fədakarlığı, qəlbinin aynasından süzülən insanlığı, dosta sədaqəti, məsuliyyəti ilə qazanır. Nə yaxşı ki, siz bunu bacarmısınız. Arzu edirik ki, həyatınızda qazandığınız bu hörmət və rəğbət daim sizinlə, bir ömür də davam etsin.

***"Gündoğar"***

# Sağlam həyat üçün çalışaq



Neftçala Rayon İcra Hakimiyyəti başçısı yanında "Gender əsaslı zorakılıq və Uşaqlara qarşı zorakılıq üzrə monitorinq komissiyası" tərəfindən Neftçala Mərkəzi Xəstəxanasının toplantı zalında "Ailə planlaşdırılması və reproduktiv sağlamlığın təşkili" mövzusunda maarifləndirmə tədbiri keçirilib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, torpaqlarımızın bütövlüyü və müstəqilliyi uğrunda qəhrəmancasına həlak olmuş Şəhidlərimizin ruhunun bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.Tədbiri giriş sözü ilə açan Neftçala Mərkəzi Xəstəxanasının direktoru Elman Quliyev Ailə planlaşdırılması və reproduktiv sağlamlığın müasir dövrün aktual problemlərindən olduğunu və mövzu ilə



əlaqədar maarifləndirmə tədbirlərinin əhəmiyyətindən bəhs edib. Daha sonra "Gender əsaslı zorakılıq və Uşaqlara qarşı zorakılıq üzrə monitorinq komissiyası"nın katibi Gövhər Məmmədova "Ailə planlaşdırılması" mövzusunda geniş təqdimatla çıxış edərək tədbirin mahiyyəti və komissiyanın Ailə planlaşdırılması və reproduktiv sağlamlığın təşkili ilə əlaqədar gördüyü işlərdən danışaraq Azərbaycanda ana və uşaqların sağlamlığının mühafizəsinin daha da gücləndirilməsinin, gənclərin sağlam nəsil kimi yetişməsinin dövlətin siyasətinin prioritet istiqamətlərindən olduğunu bildirib.

Tədbirdə həmçinin Mərkəzi Rayon Xəstəxanasının həkimləri Nəcibə Abdullayeva, Aynur Cəfərova, Könül Qafarova və Samid İmanov adına 1 saylı tam orta məktəbin müəllimi Nahidə Kərimova da mövzu ətrafında çıxış ediblər."Gender əsaslı zorakılıq və Uşaqlara qarşı zorakılıq üzrə monitorinq komissiyası"nın məqsədi gənc nəslin sağlam böyüməsi, onların zərərli vərdişlərdən qorunması, habelə gələcəkdə sağlam ailə qurması üçün uşaq və yeniyetmələr arasında sağlam həyat tərzi və reproduktiv sağlamlıqla bağlı maarifləndirmə işlərini genişləndirməkdən ibarətdir. Tədbirin sonunda Mərkəzi Rayon Xəstəxanasının bəzi həkim əməkdaşlarının Ailə planlaşdırılması və reproduktiv sağlamlığın təşkili ilə bağlı lokanik tövsiyələrindən ibarət maarifləndirici videoçarxı iştirakçılara nümayiş olunub. Mövzu ilə bağlı dinləyicilərin də sualları cavablandırılıb.

# Maraqlı məlumatlar
## BÜRC XƏLİFƏ

Dünyanın ən hündür binası və 8-ci möcüzəsi olan "Bürc Xəlifə" BƏƏ-nin Dubay şəhərində yerləşir. Binanın tikintisi 2004-cü il sentyabrın 21-də başlanılıb və 2009-cu il oktyabrın 1-də tamamlanıb. Açılış mərasimi isə 2010-cu ilin yanvarın 4-də baş tutub. Bürc Xəlifə şəhərin idarəçisi Şeyx Məhəmməd bin Rəşid Əl Maktum tərəfindən rəsmən açılıb. Açılış mərasimində 60 min qonaq iştirak edib.



Binanın tikintisinə 1,5 milyard dollar pul xərclənib.Layihənin ideyası amerikalı memar Adrian Smit tərəfindən verilib. Binada 163 mərtəbə və 57 lift var. Binanın daxili həm sərinlədilir, həm də ətirlərlə təravətləndirilir. Şüşələri toz keçirmir və günəş şüalarının qarşısını alaraq binada optimal temperaturun yaranmasına şərait yaradır. Binada həmçinin dünyanın ən hündür məscidi və üzgüçülük hovuzu var.

Binanın hündürlüyünün nə qədər olması məxfidir, amma onun əvvəlki "Taipei 101" binasından hündür olması dəqiqdir.

Memarlıq və mühəndislik prosesinin müəyyən bir nöqtəsində orijinal "Emaar Properties" şirkətinin tərtibatçıları maliyyə problemləri ilə üzləşdilər və daha çox pul və iqtisadi maliyyə tələb etdilər. BƏƏ-nin o zamankı əmiri olan Şeyx Xəlifə pul yardımı və maliyyə ayırdı, buna görə də adı "Bürc Dubay"dan "Bürc Xəlifə"yə dəyişdirildi.

"Bürc Xəlifə"nin tənqidi qəbulu isə ümumilikdə müsbət olub və bina bir çox mükafatlar alıb. Bununla belə, əsas tikinti işçi qüvvəsi olan Cənubi Asiyadan olan miqrant işçilərlə bağlı çoxsaylı şikayətlər var idi. Bunlar aşağı əmək haqqı və vəzifələr başa çatana qədər pasportların müsadirə edilməsi praktikasına əsaslanırdı.

**Nicat AĞAYEV**

# TƏŞƏKKÜR EDİRİK, DOSTLAR!

*"Gündoğar" qəzeti 2023-ci il üçün "Abunə xidmətimiz"də fəallıq göstərən, onun səsinə səs, yaşamına nəfəs verən, maarifçiliyi sevən, doğma rayonumuzun tarixinin qorunmasına dəstək olan dəyərbilən təşkilatlara, o cümlədən- Neftçala rayon Prokurorluğuna, Neftçala rayon Gənclər və İdman idarəsinə, Neftçala rayon Heydər Əliyev Mərkəzinə, rayon üzrə İnzibati Ərazi Dairə Nümayədəliklərinə, bir neçə Bələdiyyə təşkilatlarına (o cümlədən Yuxarı Qaramanlı, Xolqarabucaq, Cəngan, Xolqaraqaşlı, Boyat kənd ),*

*Şəxsi olaraq "Abunə" səsimizə doğmalıq göstərən Tamella Hümbətovaya (Neftçala şəhər) Şaiq Məmmədova (RİH), Fərid Əhmədova (RİH), Nəzakət Məmmədovaya (MKS), Sona Haxıyevaya(YAP), şair Atamalı Talıboğluna (Xəzər kənd), Şəhrəbanu Əhmədovaya (Cəngan kənd) Nazim Teymuroğluna (Yuxarı Qaramanlı), Əliqulu müəllimə(Yuxarı Qaramanlı) təşəkkürümüzü bildirir, vətənsevər ruhunuz var olsun deyirik. İnamınız, dəstəyiniz yaşadacaq "GÜNDOĞAR"ı...*

***Şəfəqlərin aydınladar hər zülməti,***
***Çeşmən dərin, kim adlayar həqiqəti!***
***Tarix üçün dəyərini qoruyasan-***
***İnsanlığa sən əbədi can olasan!***

***Söz ünvanın milyonları bürüyəcək ,***
***"Gündoğar"ım, zaman ilə yürüyəcək!***
***Söhbət açar yurdun addım nidasından,***
***Vətən üçün hər sədaqət sədasından...***

***Əl-əl gəzər hər bir sayı sevənlərdə-***
***Şad olacaq ruhu nakam köçənlər də...***
***Sən tarixin bir parçası, sorağısan-***
***Neftçalamın "Kür-Xəzər"li qaynağısan...***

***("İŞIĞA DOĞRU")***

# DİQQƏT:ELAN

Neftçala rayon Polis Şöbəsi "Polisə İctimai Dəstək" (mülki) vəzifəsinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir. Müsabiqədə ali və ya orta-ixtisas, yaxud tam orta təhsili, yaşı 20-dən 23-dək, boyu 180 sm-dən hündür, idman cüssəli, zahiri görünüşünə, sifət cizgilərinə, səliqəsinə, fiziki hazırlığına, vətəndaşlarla ünsiyyət yaratmaq bacarığına, müəyyən edilmiş boy həddinə görə çəkisi mütənasib olan həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış, (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumları istisna olmaqla) kişi namizədlərin vakant olan vəzifələrə "Azərbaycan Respublikası Daxili İşlər Orqanlarında Xidmət Keçmə Haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən, Azərbaycan Respublikası vətəndaşları iştirak edə bilər.

Müsabiqədə iştirak etmək istəyən namizədlər aşağıdakı sənədləri təqdim etməlidir:

*-Şəxsiyyət vəsiqəsi;*
*-Tam orta təhsil haqqında Attestat;*
*-Hərbi Bilet;*
*-Əmək kitabçası(olanlar üçün);*

*-Əlavə məlumat almaq istəyənlər Neftçala rayon Polis Şöbəsinə müraciət edə bilər.*

*Əlaqə telefonu: (021 26) 3-31-49, (021 26) 3-10-67, **(021 26) 3-42-52.***


**Baş redaktor:** B.H.NİFTALİYEVA

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır.

Ünvanımız: Az 4700, Neftçala şəhəri, H.Əliyev prospekti 38,Telefon: (021) 26-3-44-03
AZ95AIIB33080019446400258164
VÖEN: 6500044671

Qəzet "GÜNDOĞAR"ın kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərindəki "BZ" mətbəəsində çap olunmuşdur.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Tiraj: 250 Sifariş № 1
Bir nömrənin qiyməti: 50 qəpik.